Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

100 il ötsə də...

# Erməni saxtakarlığı həyatda və ekranda



### I YAZI

XX yüzillikdə dünya tarixinin ən faciəli səhifələri qardaş Türkiyədə türklərin, Azərbaycanda azərbaycanlıların erməni quldur birləşmələri və onların havadarları tərəfindən kütləvi şəkildə qırılması ilə bağlıdır. İstər Türkiyədə, istərsə də Azərbaycanda törədilən bütün bu qırğınlar, soyqırımılar erməni şovinistlərinin, erməni daşnaklarının dənizdən-dənizə "Böyük Ermənistan" yaratmaq xülyası, xam xəyalı, fantaziyası ilə bağlı olmuşdur. Çox təəssüf ki, erməni millətçiləri bu gün də qonşu ölkələrdən torpaq qoparmaq eyforiyasından əl çəkə bilmirlər.

### FAKTLAR NƏDƏN XƏBƏR VERİR

Ermənilər 1915-ci ildə Türkiyənin Van şəhərində qanlı hadisələr törətmiş, nəticədə böyük sayda dinc müsəlman əhalisi qətlə yetirilmişdir. İllər keçəndən sonra daimi yaşayış yeri, evi-eşiyi olmayan, dünyanın hər yerində kök salmış ermənilər Türkiyədəki hadisələri "erməni genosidi" kimi qələmə verərək dünya xalqlarını bu yalana inandırmağa çalışmışlar.

Azərbaycan Televiziyasının "Azərbaycantelefilm" yaradıcılıq birliyində 2007-ci ildən erməni daşnaklarının Türkiyədə və Azərbaycanda törədikləri vəhşiliklər barədə silsilə sənədli televiziya filmləri çəkilmişdir: "Ermənilər-riyakarlığın anatomiyası", "1915-ci il. Erməni saxtakarlığının başlanğıcı", "Saxta göz yaşları". Sonuncu filmdə 1918?1920-ci illərdə Azərbaycanda və Türkiyədə baş vermiş tarixi hadisələrdən söhbət açılır. Bu filmin çox böyük coğrafi əhatəsi vardır. Azərbaycanda çəkilişlər Bakıda, Qubada, Şamaxıda, Salyanda, Lənkəranda aparılmışdır. Çəkiliş qrupu Türkiyədə ? Trabzonda, Ərzurumda, Qarsda, İğdırda, Vanda, eyni zamanda Türkiyənin kəndlərində, əyalətlərində olmuşdur. Tbilisidə mövzu ilə bağlı çoxlu material lentə alınmış, arxivlərdən lazımi sənədlər əldə edilmişdir.

Filmdə göstərilən hadisələr real tarixi faktlar üzərində qurulmuşdur. Bütün bunlar sənədlərlə təsdiq edilmişdir. Çəkiliş qrupu erməni silahlı hərbi hissələri tərəfindən qətlə yetirilən türklərin kütləvi basdırılmasının yerlərində olmuşdur.

Bu filmləri çəkərkən yaradıcı qrup təkcə Azərbaycan tarixi faktlarından istifadə etməklə kifayətlənməyib. Eyni zamanda rus, ingilis tarixçilərinin və alimlərinin əsərlərinə, hətta ermənilərin özləri tərəfindən çap olunmuş ədəbiyyata da istinad etmişdir. Belə ki, 1931-ci ildə ermənilər rus-türk və rus-İran müharibələrindən sonra I Nikolay dövründə baş vermiş hadisələrdən bəhs olunan kitab çap etmişlər. 1928-1929-cu illərdə minlərlə erməni Türkiyə və İrandan Cənubi Qafqaza, məhz vaxtilə İrəvan və Qarabağ xanlıqlarına köçürülmüşdür.

1915-ci il əhvalatından 100 il ötsə də, ermənilərin öz xeyirlərinə uydurduğu genosid fantaziyası fantaziya olaraq qalır. Düzdür, yazıq görkəm alıb onillərlə göz yaşı tökən riyakar ermənilərin uydurduğu yalanlar havadarlarının köməkliyi ilə bəzən ayaq tutub, amma yeriməyib. Bu işdə erməni siyasətçilərinin canfəşanlıqla fəaliyyət göstərmələri göz qabağındadır. Ermənistanın sənət adamlarının, o cümlədən kino işçilərinin sovet dövründə, müxtəlif illərdə uydurulma "erməni soyqırımı" barədə çəkdikləri, nəinki Sovet İttifaqında, həm də dünyanın müxtəlif ölkələrində nümayiş etdirdikləri bədii və sənədli filmlər tamaşaçılarda təəccüblə dolu hiddət doğurmaya bilmir.

### ERMƏNİ KİNOFANTAZİYASI

Əldə etdiyimiz faktlara ("Armyanskoye kino": 1924-1999. Аннатированный kataloq Armeniya. 2000. Kataloq erməni, rus və ingilis dillərində nəşr olunmuşdur. Eyni zamanda CD versiyası da buraxılmışdır) əsasən onlar 1960-1990-cı illərdə, yəni sovet dövründə və sovet puluna "erməni soyqırımı" haqqında 9 bədii, 1 animasiya, 1 bədii-sənədli və 1977-1995-ci illərdə 3 sənədli film istehsal etmişlər. Bu təbliğat maşını bu gün də dayanmadan işləyir.

Əgər bu filmlərin böyük əksəriyyəti sovet dövründə istehsal olunubsa, görün indi onlar xarici ölkə tamaşaçılarını uydurduqları yalanlara inandırmaq üçün necə dəridən-qabıqdan çıxırlar.

Gəlin bəzi bədii filmlərin məzmununa, ideyasına diqqət yetirək. "Yaşamaq üçün doğulmuşlar" filmində deyilir ki, 1915-ci ildə "ermənilərin soyqırımından" sonra iki qardaş bir-birindən ayrı düşür: biri okeanın o tayına gedir, o birisi Böyük Vətən müharibəsində həlak olur. Sağ qalan Ermənistana gəlib ölmüş qardaşının uşaqlarını axtarır. "Şimal göyqurşağı" filmi isə rus yazıçısı və diplomatı A.Qriboyedovun "məhvə məhkum olunmuş" ermənilərə kömək etməyə çalışmasından bəhs edir.

Bu filmlərə diqqət yetirəndə bir sual ortaya çıxır: məgər 1915-ci il hadisəsi ermənilərin dünyaya səpələnməsinə səbəb olub?

Ermənilərin əvvəldən daimi yaşayış yerləri olmadığı üçün onlar yerindən-yurdundan asılı olmayaraq dünyanın hansı yerində gəldi məskunlaşmışdılar. O ki, qaldı A.Qriboyedovun ermənilərlə bağlı canfəşanlığına ermənilər heç vaxt "məhvə məhkum" olmayıblar. Sadəcə olaraq bu, bir siyasət idi. Yazıçı rus imperatorunun tapşırığı ilə ermənilərin Cənubi Qafqazda, konkret olaraq Azərbaycanda yerləşdirilməsinə çalışırdı. Əgər ermənilər "məhvə məhkum" olsaydılar onlar bu gün İran İslam Respublikasında və qardaş Türkiyədə rahat və firavan yaşaya bilməzdilər.

Jurnalist A.Şərif məqalələrinin birində yazmışdır: "Qriboyedov hökumətdən, Rusiyaya "düşmən" olan xan və bəylərdən müsadirə edilmiş 120 min desyatin torpağın onun sərəncamına verilməsini istəyirdi. Bu işin həyata keçirilməsində saxta fars soyadları altında Rusiya səfirliyində işləyən ermənilər ona fəal köməklik edirdilər... Məhz bu adamların köməkliyi ilə ermənilər şəxsən Qriboyedova müraciət edərək, onların Şimali Azərbaycana köçmələrinə icazə verilməsini istəyirdilər. Və özü də bu zaman Vətənimizin ən bərəkətli və füsunkar torpaqlarından olan Dağlıq Qarabağı özlərinə yurd seçirdilər. Hətta onlar Bakının özündə "Ermənikənd" adlanan ərazidə özlərinə bağ-bağatlı məhəllələr də salmışdılar. Qriboyedov bununla bağlı deyirdi: "Siz təsəvvür etmirsiniz ki, bu məsələ ilə bağlı mənə hər gün nə qədər xahişlər olur".

Azərbaycana köçürülən ermənilərin əsas hissəsi Qarabağda mülkədarların torpaqlarında yerləşdirilirdi. Bu isə azərbaycanlı mülkədarların narazılığına səbəb olurdu. Bununla bağlı A.Qriboyedov yazmışdı: "Əlbəttə, köçkünlər müsəlmanları sıxışdırdıqlarından, bu onların əsaslı surətdə narazılığına səbəb olurdu. Biz Arçutinski ilə birgə xeyli götür-qoy edirdik ki, müsəlmanlara necə təlqin edək ki, bu narahatçılıqların ömrü uzun sürməyəcək və onlara məxsus torpaqların ermənilər tərəfindən həmişəlik mənimsəniləcəyinə heç bir əsas yoxdur".

"Şimal göyqurşağı" filmindən məlum olur ki, Qriboyedov İran fanatları tərəfindən qətlə yetirilir, lakin onun yuxarıda qeyd etdiyimiz kimi, həyata keçirdiyi planlar filmin qəhrəmanlarının "Vətənə" qayıtmalarına kömək edir. Sual olunur, hansı vətənə? Yaxşı deyiblər ki, utanmasan, oynamağa nə var ki!

"Qaçqınlar", "Dzori Miro" və "Naapet" kinolentlərinin janrını təyin etməli olsaq, bunları film-fantaziya da adlandıra bilərik. "Qaçqınlar" filminin annotasiyasında yazılmışdır: "Film 1915-ci il soyqırımı zamanının faciəvi epizodlarından biri haqqındadır: ağlını itirən ata, sultan Türkiyəsində cəza qoşunları kimi istifadə edilən imtiyazlı piyada qoşunlarından canını qurtararkən gur axan çayın sularında öz uşağını itirir".

"Dzori Miro" filminin yaradıcıları fantaziya qurmaqda heç də həmkarlarından geri qalmırlar. Filmin məzmunu belədir: "Miro Osmanlı imperiyasında 1915-ci il "soyqırımı"nda ailəsini itirir. Bundan sonra o, könüllülərlə birgə türk əsgərlərinə qarşı vuruşur. Həyatdan cana doymuş və hər şeyə qarşı inamını itirən Miro Şərqi (sovet) Ermənistanda (?) sığınacaq tapır. Özü kimi qaçqın qadına olan məhəbbəti onu həyata qaytarır, hər ikisində ailə qurmaq və yeni həyata başlamaq arzusu oyanır.

"Naapet" filmində də buna bənzər hadisə baş verir. Yenə də 1915-ci il. Yenə də erməni "soyqırımı". Yenə də ailəsini itirmiş Naapet xoşbəxtliyini Sovet Ermənistanında tapır. Hansı Sovet Ermənistanında? Əlbəttə, qədim Azərbaycan torpaqlarının hesabına yaranmış yalançı ölkədə.

### "BÖYÜK ERMƏNİSTAN" YARATMAQ XÜLYASI

Bütün bu filmlərə baxarkən aydın olur ki, ermənilərin ortaya atdıqları "soyqırımı" məsələsi hansı yolla olursa-olsun Azərbaycandan və qardaş Türkiyədən torpaq qoparmaq istəyi ilə bağlıdır.

Təsadüfi deyil ki, onlar filmlərində Sovet Ermənistanını Şərqi Ermənistan adlandırırlar. "Həsrət" filmində erməni kino işçiləri bu fikri açıq şəkildə nümayiş etdirirlər. Filmin əsasını kəndli Arakelin həyat tarixçəsi təşkil edir. O, yay günlərinin birində xiffətini çəkdiyi "doğma dədə-baba yurduna", "doğma ocağa", dövlət sərhədinin o biri tayına Türkiyəyə gedib çıxır... (Guya Türkiyə də bunların dədə-baba yurdudur). Geri qayıdarkən Xalq Daxili İşlər Komissarlığının zindanında faciəli şəkildə həlak olur.

Göründüyü kimi, 1990-cı ildə istehsal olunmuş "Həsrət" bədii filmində belə Türkiyəni "doğma dədə-baba yurdu, doğma ocaq" adlandırmaları təsadüfi deyil. Ermənilər bu filmi çəkməklə gələcək nəsillərinə mesaj göndərirlər ki, Qarabağdan başqa Türkiyənin də bir parçası guya onların "dədə-baba yurdu" olmuşdur. Çoxlu faktlar var ki, hətta ermənilər Gürcüstanın da torpaqlarının bir hissəsinə göz dikiblər. Bu, indinin söhbəti deyil, ermənilərin ərazi iddialarının tarixi çox qədimdir.

"Aprel" bədii filmi də (1985) gələcək nəsillərə ünvanlanmışdır. Burada "soyqırımı" erməni fantaziyası utanıb çəkinmədən qabarıq şəkildə xatırlanır. Filmdəki hadisələr keçən əsrin 80-ci illərinin ortalarında cərəyan edir. Filmin personajları 1915-ci il "qırğınından" möcüzə nəticəsində canını qurtarmış insanların nəslidir. Onlar tarixin dərslərini xatırlayır, bu xatirəni uşaqlarına və nəvələrinə söyləyirlər.

Biz isə sovet dövründə bədii ("Vulkan üzərində ev", "26 komissar", "Səbuhi", "Səhər", "Bizim küçə", "Romeo mənim qonşumdur", "İyirmialtılar", "Yaşamaq gözəldir, qardaşım", "İnsan məskən salır", "Ömrün ilk saatı", "Sizi dünyalar qədər sevirdim", "Bağlı qapı", "Lətifə", "Sarı gəlin") və sənədli ("26 Bakı komissarının güllələndiyi yerə yürüş", "Zaqafqaziya xalqlarının dostluğu", "Zaman haqqında, özüm haqqında", "Üç qardaş", "Harri Qasparov. Portret variantı", "Harri Qasparov") filmlərimizdə xalqlar dostluğundan, qardaşlıqdan söhbət açmışıq.

Beləcə, nəsildən-nəslə ötürülən bu yalançı soyqırımı haqqında nə qədər kitablar yazılsa da, filmlər vasitəsilə dünyada təbliğat aparılsa da fakt öz təsdiqini tapmır. Çünki yalan yalan olaraq qalır.

**Aydın Kazımzadə,**
**əməkdar incəsənət xadimi**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***